*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (1) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*




*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received : 30.06.2023*
*Kabul tarihi |Accepted: 20.07.2023*
*Yayın tarihi |Published : 25.06.2023*



**Ədalət Qasımov**

*https://orcid.org/ 0009-0003-2160-7397*
*Azerbaijan National Academy of Sciences Bakikhanov Institute of History "Aliyev Studies" Head of Department, Doctor of Historical Sciences, Azerbaijan, adaletqasimov56@mail.ru*

*Atıf Künyesi | Citation Info*
Ədalət Qasımov (2023). "Kiçik Vətənə" Qayıdış – "Böyük Siyasət"Ə Qayıdış (Heydər Əliyevin Həyatının Naxçıvan Dövrünə Aid Ştrixlər), *Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 10* (1), 94-107.

# "Kiçik Vətənə Qayıdış – "Böyük Siyasət"Ə Qayıdış (Heydər Əliyevin Həyatının Naxçıvan Dövrünə Aid Ştrixlər)

***Xülasə***

*Məqalədə Heydər Əliyevin siyasi fəaliyyətinin üçüncü dövrü – onun sovet rəhbərliyinin təzyiqi ilə bütün vəzifələrindən uzaqlaşdırıldıqdan sonra doğulduğu vətənində – Naxçıvan MR-da fəaliyyəti təhlil olunur. Naxçıvana qayıtmaqla o nəinki daim öz xalqı ilə birlikdə olduğu, onun ağrı və acıları ilə yaşadığını bir daha sübut etdi, həmçinin Azərbaycanın bu qədim torpağını erməni işğalından müdafiə edərək, böyük vətənin ərazi bütövlüyünün qorunmasında əvəzsiz xidmətlər göstərdi. Heydər Əliyevin Naxçıvana qayıdışı onun böyük siyasətə qayıdışı olmaqla, Azərbaycan xalqının milli hüquqlarının qorunması, müstəqil dövlətçiliyinin bərpa edilməsi uğrunda mübarizənin başlanğıcı oldu. Naxçıvanda*

*fəaliyyət göstərdiyi 35 ay ərzində qəbul etdiyi qərarlar Azərbaycan xalqı tərəfindən tam dəstəklənirdi və buna görə də az müddətdən sonra Heydər Əliyev Azərbaycan milli hərəkatının liderinə çevrildi.*

***Açar sözlər:*** *Heydər Əliyev, Azərbaycan, Naxçıvan, milli hərəkat*

# Return to the "Small Country" - Return to the "Big Politıcs" (Strokes Associated With the Nakhchivan Period of Heydar Aliyev's Life)

***Abstarcat***

*The article analyzes the third period of Heydar Aliyev's political activity - after he was removed from all positions under the pressure of the Soviet leadership in his native land - Nakhchivan MR. By returning to Nakhchivan, he not only proved once again that he is always with his people, that he lives with their pain and suffering, but also defended this ancient land of Azerbaijan from the Armenian occupation and rendered invaluable services in protecting the territorial integrity of the great motherland. Heydar Aliyev's return to Nakhchivan was his return to big politics and the beginning of the struggle for the protection of the national rights of the Azerbaijani people and the restoration of their independent statehood. The decisions he made during his 35 months of activity in Nakhchivan were fully supported by the people of Azerbaijan, and therefore after a short time Heydar Aliyev became the leader of the Azerbaijani national movement.*

***Keywords:*** *Heydar Aliyev, Azerbaijan, Nakhchivan, national movement*

## Giriş

Zəmanəmizin görkəmli siyasi və dövlət xadimi, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin ictimai-siyasi fəaliyyətinin mühüm mərhələsini onun 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı və fəaliyyət göstərdiyi dövr təşkil edir. Həmin illər bütövlükdə həm Azərbaycanın, həm də onun tərkib hissəsi olan Naxçıvanın taleyində ən mürəkkəb və keşməkeşli dövrlərdən birini təşkil edir. Dağlıq Qarabağda erməni separatizminin baş qaldırması, Azərbaycanda hökm sürən xaos və anarxiya nəticəsində torpaqların işğalı ölkəni məhv olma təhlükəsi ilə üz-üzə qoymuş, muxtar respublikanın Ermənistan tərəfindən işğalı reallığa çevrilmişdi. Belə şəraitdə öz kiçik vətəninə qayıdan Heydər Əliyev öz gərgin fəaliyyəti ilə nəinki Naxçıvanı onu gözləyən fəlakətlərdən qorudu, həm də böyük vətəni Azərbaycanı nicat yoluna çıxardı.

1980-ci illərin ortalarında SSRİ-də həyata keçirilməyə başlanılan yenidən-qurma siyasəti totalitar sovet rejiminin siyasi, iqtisadi, mənəvi böhranını nəinki aradan qaldırmadı, əksinə onu daha da dərinləşdirdi. Hakim kommunist partiya-sının nüfuzu tamamilə itdi, sovet imperiyasında mərkəzdənqaçma meylilləri dönməz xarakter aldı. Müttəfiq respublikalarda baş qaldıran suverenlik, demok-ratikləşmə uğrunda xalq hərəkatlarının qarşısını almaq üçün

Mərkəz milli münasibətləri, xalqlar arasında ədavəti qızışdırmaq yoluna əl atdı. Nəticədə keçmiş ittifaqın müxtəlif bölgələrində münaqişə ocaqları daha da alovlandı.

Mövcud siyasi şəraiti özləri üçün əlverişli hesab edən, Moskvanın hakim dairələrinin havadarlığından ruhlanan erməni şovinistləri Azərbaycanın tərkib hissəsi olan Dağlıq Qarabağa və Naxçıvana qarşı ərazi iddiaları ilə çıxış edərək bu torpaqları ələ keçirmək üçün təcavüzkar hərəkətlərə başladılar. SSRİ və Azərbaycan SSR rəhbərliyinin ermənilərin özbaşına, azğın hərəkətlərinə qarşı heç bir tədbir görməməsi, Azərbaycan SSR-in suveren hüquq-larının tapdalanması, Ermənistan SSR ərazisində yaşayan azərbaycanlıların öz doğma yurd-yuvalarından didərgin salınması Azərbaycan xalqının hiddətinə səbəb olmuş, xalqı ayağa qaldırmışdı.

Dağlıq Qarabağ hadisələri Naxçıvan MSSR-nin ictimai-siyasi və iqtisadi həyatına da ciddi təsir göstərdi. Ermənistan SSR tərəfindən iqtisadi və nəqliyyat-kommunikasiya blokadasına alınmış muxtar respublikada həyat şəraiti getdikcə ağırlaşır, əhalinin ərzaq və gündəlik tələbat malları, yanacaqla təmin edilməsində ciddi problemlər yaranırdı. Ermənilərin azğınlığı, mərkəzi və respublika hakimiyyət orqanlarının cinayətkar fəaliyyətsizliyi Naxçıvanda kütləvi etiraza səbəb olmuşdu.

1987-ci ilin oktyabrında Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini və Sov.İKP Siyasi Bürosu üzvlüyündən azad edilməsi erməniləri daha da şirnikləndirdi. Erməni millətçiləri yaxşı başa düşürdülər ki, nə qədər ki, Heydər Əliyev iqtidardadır, onların cinayətkar məqsədləri baş tutmayacaqdır. Ermənilər həm də onu da yaxşı bilirdilər ki, Azərbaycan SSR-ə rəhbərlik etdiyi dövrdə Heydər Əliyev Azərbaycanın bir qarış torpağını belə Ermənistana verməmiş, ermənilərin torpaq iddialarının, Dağlıq Qarabağda separatist hərəkətlərinin qarşısını qətiyyətlə almışdı. Öz məkrli niyyətlərinə nail ola bilməyən erməni şovinist dairələri ən çirkin vasitələrdən və böhtanlardan istifadə edərək bu dahi şəxsiyyəti ləkələməyə qalxaraq, onun hakimiyyətdən getməsinə çalışırdılar. Nəhayət, M.S.Qorbaçovun simasında özlərinə mənəvi himayədar tapan ermənilər Heydər Əliyevin Kremldən istefa verməsinə nail oldular. Onun istefasından cəmi 20 gün sonra Azərbaycan torpaqlarının işğalı ilə nəticələnəcək məlum Qarabağ hadisələri baş verdi.

Heydər Əliyevin ali siyasi hakimiyyətdən uzaqlaşdırılması Azərbaycanı böyük fəlakətlər qarşısında qoydu. Özünün istefaya göndərilməsinin hansı nəticələrə gətirib çıxaracağını yaxşı başa düşən Heydər Əliyev sonralar qeyd edirdi:

"*Azərbaycan üçün bəla ondan başladı ki, 1987-ci ildə ermənilər, bizim azərbaycanlıların bəziləri ilə birlikdə yığışdılar, mənim Kremldən istefa verməyimə nail oldular. Aqanbekyan o vaxt gedib Fransada bəyanat verdi ki, Dağlıq Qarabağ Ermənistana*

*bağlanmalıdır və o, bu məsələni Qorbaçovla razılaşdırıbdı. Bundan iki ay sonra Dağlıq Qarabağda üsyan, münaqişə başlandı. O vaxtdan ermənilərin bir məqsədi var idi ki, Heydər Əliyevi Kremldən uzaqlaşdırsınlar. Çünki bilirdilər ki, mən Moskvada oturmuşam və belə məsələlərin qaldırılmasına yol verməyəcəyəm. Məni Kremldən uzaqlaşdırdılar. Amma təkcə onlar yox, bizim bəzi bədxah azərbaycanlılar da bu işə kömək etdilər. Onlar birləşdilər, məni Kremldən uzaqlaşdırdılar. Bundan sonra Azərbaycan nə günlərə düşdü*" (Azərbaycan beynəlxalq aləmdə, 1998).

Azərbaycanda milli-demokratik hərəkata rəhbərliyi Azərbaycan Xalq Cəbhəsi öz əlinə almasına baxmayaraq Heydər Əliyevin nüfuzu xalq arasında müqayisəedilməz dərəcədə yüksək idi. Azərbaycan xalqı ona öz ümidgahı kimi baxır, xalq hərəkatına başçılıq etmək üçün ona saysız-hesabsız müraciətlər edilirdi. Respublikanın bir sıra bölgələrində, o cümlədən Naxçıvanda əhali əllərində Heydər Əliyevin portreti mitinq və nümayişlərə çıxır, onun Azərbaycana qayıtması və respublikaya başçılıq etməsini tələb edirdilər. Lakin SSRİ və Azərbaycan SSR rəhbərliyi xalqın iradəsini nəinki yerinə yetirir, bu böyük insanı ləkələmək, hətta fiziki cəhətdən məhv etmək üçün məkrli planlar qururdular. Həmin dövrdə Naxçıvan Bakıdan sonra Azərbaycan milli azadlıq hərəkatının ikinci mərkəzinə çevrilmişdi.

Heydər Əliyevin qeyd etdiyi kimi, o illər xüsusən 1990-1991-ci illərdə Naxçıvanda xalq hərəkatı çox güclü idi. Müstəqillik yolunda mübarizə aparanlar Naxçıvan əhalisinin demək olar ki, əksəriyyətini təşkil edirdi. Naxçıvanın müstəqillik, milli-azadlıq əhval-ruhiyyəsi bütün Azərbaycana təsir edirdi. Məhz bunların nəticəsində Naxçıvan bir çox addımlar atır və nəhayət, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin əldə edilməsində öz xidmətlərini göstərirdi (Heydər Əliyev Müstəqilliyimiz əbədidir, 1998, s. 482).

Ermənilər tərəfindən aramsız hücumlara məruz qalan, torpaqları işğal edilən, blokadaya alınmış Naxçıvanda partiya-dövlət strukturlarına etimadsızlıq son həddə çatmışdı. Milli hərəkatın mühüm hadisələrinə çevrilmiş sərhəd hərəkatı da Naxçıvanda başlayaraq Azərbaycanın bütün sərhəd rayonlarını əhatə etmişdi.

Xalq hərəkatına divan tutmaq, Azərbaycan xalqını qorxutmaq üçün SSRİ rəhbərliyi Bakıda «KQB»-nin əli ilə erməni talanları təşkil edərək paytaxta qoşun yeritdi. Eyni zamanda, ermənilər Naxçıvana hücuma keçərək 1990-cı ilin yanvarında Kərki kəndini işğal etdilər. Muxtar respublikanın işğalı təhlükəsinin real olduğunu nəzərə alan Naxçıvan MSSR Ali Sovetinin 1990-cı il yanvarın 19-da keçirilmiş fövqəladə sessiyası xalqın tələbi və təzyiqi ilə muxtar respublikanın SSRİ tərkibindən çıxması haqqında 6 bənddən ibarət tarixi qərar qəbul etdi (Səs qəzeti, 1990, 20 yanvar). Sonralar Heydər Əliyev naxçıvanlıların bu cəsarətli addımını yüksək qiymətləndirərək qeyd edirdi ki, bu addım naxçıvanlıların nə qədər cəsarətli,

qeyrətli, nə qədər azadlıqsevər və müstəqilliyə nə qədər bağlı olduqlarını sübut etdi, nümayiş etdirdi (Qayıdış (1990-1993), 2008).

İmperiyanın təcavüzü qarşısında yalqız qalan xalqın yeganə ümidi yenə də Heydər Əliyev idi. Naxçıvan şəhər partiya təşkilatının üzvləri bütün qadağa və təzyiqlərə rəğmən Heydər Əliyevi Azərbaycan KP XXXII qurultayına nümayəndə seçmişdilər (Səs qəzeti, 1990, 26 iyul). Heydər Əliyev öz həyatını təhlükə qarşısına qoyaraq Qanlı Yanvar faciəsinin ertəsi günü, yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək həmin ağır günlərdə öz doğma xalqının kədərinə şərik olduğunu bildirdi. 20 Yanvar faciəsinə ilk siyasi qiymət vermiş Heydər Əliyev bu hadisənin hüquqa, demokratiyaya, humanizmə zidd, mərkəzin və Azərbaycan SSR rəhbərliyinin kobud siyasi səhvi olduğunu göstərmişdi (Azərbaycan qəzeti, 1994, 28 yanvar).

Heydər Əliyevin öz xalqının müsibətli günlərində onunla birgə olmaq üçün Azərbaycana qayıtmaq istəyinə ittifaq və respublika rəhbərliyi tərəfindən müxtəlif maneələr yaradılırdı. Onun vətəninə qayıtması üçün böyük fədakarlıqlar göstərmiş Əjdər Xanbabayev 1990-cı il mayın 30-da qətlə yetirildi.

Bütün təzyiq və maneələrə baxmayaraq Heydər Əliyev 1990-cı il iyul ayının 20-də Azərbaycana gəldi. Lakin A.Mütəllibov iqtidarı onun Bakıda qalıb yaşamasına, fəaliyyət göstərməyinə hər vəchlə mane olduğuna görə Heydər Əliyev iki gündən sonra – iyulun 22-də doğulub boya-başa çatdığı Naxçıvan şəhərinə pənah gətirməli oldu.

Tale Heydər Əliyevi Naxçıvana yetirməklə bu qədim diyarı, bütövlükdə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etdi. "Taleyin ümidinə buraxılmış tənha bir adanın" – Naxçıvanın əhalisinin ürəyində ümid çırağı yandıran dahi insanın Naxçıvana gəlişi iqtisadi və siyasi böhran vəziyyətinə düşmüş, blokada şəraitində erməni təcavüzü qarşısında əliyalın və köməksiz qalmış əhalidə böyük coşqunluq və sevinc ovqatı yaratmışdı.

Heydər Əliyev sonralar Naxçıvana gəlişini belə təsvir edirdi: 1990-cı ilin yayı idi. Bütün Azərbaycanda olduğu kimi Naxçıvanda da vəziyyət çox ağır idi. Mən buraya gələrkən Naxçıvanı çox çətin bir vəziyyətdə gördüm. Amma eyni zamanda özümü çox rahat hiss etdim. Mən Naxçıvana gələndə Naxçıvan ayağa qalxdı. Naxçıvan məni qucaqladı, bağrına basdı. Son illərdə çəkdiyim bütün əzab-əziyyəti unutdum. Bilirsiniz ki, bir il sadə həyat keçirdim. Görünür, mənim Naxçıvana gəlməyim taleyin işi imiş(Heydər Əliyev Müstəqilliyimiz əbədidir, 1998). Heydər Əliyevin Naxçıvana gəlişi burada ictimai-siyasi həyatı daha da canlandırdı, xalqın mübarizə əzmini möhkəmləndirdi. Qısa müddətdə milli dövlətçiliyin bərpası istiqamətində Heydər Əliyevin başçılığı altında qətiyyətli və ardıcıl addımlar atılmağa başlandı.

Naxçıvana gəlməsi haqqında heç kimə xəbər verməsə də, onun səsi-sorağı bir neçə dəqiqədə bütün Naxçıvana yayıldı. Şəhərə gəldikdən sonra ilk olaraq Hüseyn Cavidin məqbərəsini ziyarət edən Heydər Əliyev həmin gün axşam 80 minlik insanın toplandığı mərkəzi meydanda mitinqdə çıxış etdi.

Mitinqdə çıxış edən Heydər Əliyev Azərbaycan xalqının birliyi, suverenliyi və azadlığı uğrunda mübarizə aparacağını qətiyyətlə bildirdi (Səs qəzeti, 1990, 1 avqust). Muxtar respublikanın ayrı-ayrı şəhər və kəndlərindən gələn nümayəndələr Heydər Əliyevi görüşlərə dəvət edirdilər. Onun sadə adamlarla, gənclərlə, veteranlarla, kənd sakinləri ilə görüşləri əsl xalq bayramına çevrilirdi.

Heydər Əliyevin Naxçıvana gəlişi Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinə seçkilər kampaniyası ilə bir vaxta düşdü. Heydər Əliyev hara gedirdisə onu deputatlığa namizəd irəli sürürdülər. Lakin artıq Heydər Əliyev Nehrəm seçki dairəsindən Azərbaycan SSR Ali Sovetinə deputatlığa namizədliyinə razılıq vermişdi. Eyni zamanda o, 2 saylı Naxçıvan şəhər seçki dairəsində Naxçıvan MSSR xalq deputatına da rəsmi namizəd kimi təsdiq olunmuşdu (Səs qəzeti, 1990, 1 avqust). Heydər Əliyevin seçicilərlə görüşü əhalinin yüksək fəallığı şəraitində keçirdi. Nehrəm kəndində seçicilərlə görüşündə o öz platformasından danışaraq deputat kimi əsas məqsədinin Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi, Azərbaycanın tam müstəqil, azad, demokratik respublika olmasını qeyd etmişdir. Respublikanın milli gəlirinin artırılmasını, iqtisadi potensialının yüksəldilməsinin və xalqın güzəranının yaxşılaşdırılmasını da başlıca vəzifə hesab edən Heydər Əliyev bütün siyasi qüvvələri birliyə, Azərbaycanın xoşbəxt gələcəyi naminə mübarizəyə, xalqın tərəqqisinə köməyə çağırdı: "*Bütün bu vəzifələri yerinə yetirmək üçün ancaq və ancaq birlik, yekdillik lazımdır. Hər cür dedi-qodunu, incikliyi aradan götürməli, bir yumruq kimi birləşməli, xalqımıza düşmən olan qüvvələrə qarşı durmalıyıq. Bunun üçün rəhbərliklə xalqın yekdilliyi tam təmin olunmalıdır*" (Səs qəzeti, 1990, 26 sentyabr).

Naxçıvana gəldikdən dərhal sonra o özünün Naxçıvan MSSR vətən-daşlığına qəbul edilməsi üçün Ali Sovetin Rəyasət Heyətinin sədri A.Cəlilova müraciət etmiş, Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin 21 avqust 1990-cı il tarixli qərarı ilə Heydər Əliyev Naxçıvan MSSR vətəndaşlığına qəbul edilmişdi (Qayıdış (1990-1993), 2008). 1990-cı il sentyabrın 30-da Azərbaycan SSR və Naxçıvan MSSR xalq deputatlarının seçkiləri keçirildi. Heydər Əliyev tam yekdilliklə Azərbaycan SSR və Naxçıvan MSSR ali qanunverici orqanına üzv seçildi.

1990-cı il noyabrın 17-də Naxçıvan MSSR Ali Sovetinin birinci sessiyası öz işinə başladı. Deputatlar sessiyanın aparılmasını yekdilliklə deputat Heydər Əlirza oğlu Əliyevə

həvalə etdilər. Yeri gəlmişkən, bu təkliflər hələ sessiya başlamazdan 8 gün əvvəl şəxsən Heydər Əliyev tərəfindən irəli sürülmüş və xalqın iradəsi ilə sessiyada qəbul edilmişdi (Qayıdış (1990-1993), 2008). Sənədlər toplusu. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı. Azərbaycan, 2008, Sessiyada qəbul edilmiş qərarlar haqqında Azərbaycan SSR-in rəsmi informasiya vasitələrinə ətraflı məlumat verilməsinə baxmayaraq, bu barədə respublika mətbuatında və elektron vasitələrində heç bir məlumat getməmişdi. Buna Ali Məclis öz qəti etirazını bildirmiş və bunu Naxçıvan MR-in Azərbaycan SSR iqtidarı tərəfindən informasiya blokadasına alınması kimi qiymətləndirmişdi (Qayıdış (1990-1993), 2008).

Naxçıvan MR Ali Məclisinin həmin sessiyasında həmçinin ilk dəfə olaraq 20 Yanvar hadisələrinə siyasi qiymət verildi. Bu məsələ ilə bağlı çıxış edən deputat Heydər Əliyev hadisənin baş vermə səbəbləri, günahkarları haqqında fikirlərini açıq söyləyərək bu hadisənin M. Qorbaçov başda olmaqla, o vaxtkı ölkə rəhbərliyinin Azərbaycan xalqına qarşı hərbi təcavüzü, cinayəti, respublika rəhbərliyinin xalqa xəyanəti kimi səciyyələndirmişdi. Ali Məclisin 1990-cı ilin yanvarında Bakıda törədilmiş hadisələrə siyasi qiymət verilməsi haqqında qərar layihəsini şəxsən Heydər Əliyev özü hazırlamış və yekdilliklə qəbul edilmişdi.

Həmin sənəddə ilk dəfə olaraq 20 Yanvar hadisələri Azərbaycanın suveren hüquqlarına, respublikada gedən demokratik proseslərə qəsd, Azərbaycan xalqına qarşı açıq təcavüz kimi qiymətləndirilmiş, 20 Yanvar gününün hər il milli matəm günü kimi qeyd edilməsi də qərara alınmışdı. Bundan çox-çox sonra 20 Yanvarın Azərbaycanda hüzn günü kimi qeyd olunması haqqında qərar verilmişdi (Qayıdış (1990-1993), 2008).

Naxçıvan MR Ali Məclisinin sessiyası Azərbaycan SSR-nin Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə də öz prinsipial münasibətini bildirərək xüsusi qərar qəbul etmişdi. Məsələ ilə bağlı Heydər Əliyev iki dəfə – noyabrın 20 və 21-də çıxış etmiş, Dağlıq Qarabağ ətrafında baş verən hadisələrin geniş təhlilini verərək, vəziyyətdən çıxış yollarını göstərmişdir. Qeyd edək ki, bu məsələ ilə bağlı qəbul edilmiş geniş qərar məhz Heydər Əliyevin çıxışlarında irəli sürülmüş müddəalara əsaslanırdı. Qərarda DQMV-nin Azərbaycanın ayrılmaz tərkib hissəsi, tarixi torpağı olduğu qətiyyətlə bildirilir, Ermənistanın Azərbaycana qarşı bütün ərazi iddialarından əl çəkməsi tələb edilirdi. Dağlıq Qarabağ məsələsində Azərbaycan rəhbərliyinin mövqeyi, xüsusən Azərbaycan SSR-in dövlət suverenliyinin və ərazi bütövlüyünün, Azərbaycan xalqının şərəf və ləyaqətinin müdafiəsində qətiyyətsizlik göstərməsi, DQMV Xüsusi İdarə Komitəsinin yaradılmasına razılıq verməsi Azərbaycanın milli mənafeyinə zidd mövqe kimi qiymətləndirilirdi.

Dağlıq Qarabağ məsələsində qeyri-obyektiv və birtərəfli mövqe tutan SSRİ rəhbərliyindən Ermənistanın Azərbaycan SSR-nin daxili işlərinə qarışmasına son qoymaq, Azərbaycana qarşı torpaq iddialarının qarşısını almaq, DQMV-də Azərbaycan SSR-in qanuni orqanlarına sərbəst fəaliyyət göstərmələri üçün şərait yaratmaq tələb olunurdu Azərbaycan (Respublikası Milli Məclisin Arxivi. f 2941, s.1a, iş 186).

Heydər Əliyevin liderliyi altında Naxçıvan MR Ali Məclisi Azərbaycan xalqının mənafeyinə aid olan bütün məsələlərə prinsipial yanaşma nümayiş etdirir, öz mövqeyini ortaya qoyurdu. SSRİ-nin dağılmasının qarşısını almaq, respublikaların müstəqillik yolundan döndərmək üçün Mərkəz yeni ittifaq müqaviləsi ideyasını ortaya atmış, SSRİ-nin saxlanılması haqqında referendum keçirilməsi təklifi ilə çıxış etmişdi. A.Mütəllibov başda olmaqla respublika rəhbərliyi yenə də milli inkişafın əleyhinə yönəlmiş bir mövqe tutaraq Mərkəzin bu avantürist siyasətini müdafiə etmişdi.

1991-ci il yanvarın 14-də Naxçıvan MR Ali Məclisinin sessiyasında yeni ittifaq müqaviləsinin layihəsinin müzakirəsində çıxış edən Heydər Əliyev respublika rəhbərliyinin bu mövqeyini kəskin tənqid etdi və bildirdi ki,

*"ittifaq müqaviləsinin layihəsi ümumittifaq siyasi rəhbərliyi tərəfindən və xüsusən Qorbaçov tərəfindən bütün sovet xalqını yenidən aldatmaq cəhdinin bir təzahürüdür... Bir tərəfdən Azərbaycanın bəzi rəsmi dairələri öz hərəkətləri ilə göstərirlər ki, biz milli dirçəliş yoluna düşürük. Bu yolla getmək istəyirik. Belə olan halda necə ola bilər ki, əgər biz milli dirçəlişi təmin etmək istəyiriksə, özümüzü gətirib hansısa bir ittifaqda bağlayaq? Burada məntiq yoxdur… Azərbaycan üçün bu müqaviləyə girmək, ona müsbət rəy göstərmək xalqımız qarşısında cinayət etmək deməkdir… Son üç ildə başımıza gələnlər tam açıq göstərdi ki, bizim ümumittifaqdan nicatımız yoxdur"* (Azərbaycan Respublikası Milli Məclisin Arxivi. f 2941,s.1a, iş 186, 163, 165, 167, 168).

Heydər Əliyev bu prinsipial mövqeyini 1991-ci il martın 7-də Azərbaycan Ali Sovetinin sessiyasında bir daha nümayiş etdirərək martın 17-də keçirilməsi nəzərdə tutulmuş «SSRİ-nin saxlanması haqqında» referenduma qətiyyətlə «yox» dedi: «Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin, heç bir şərt qoymadan, tam əleyhinəyəm … Azərbaycanın tam istiqlaliyyəti, azadlığı, iqtisadi və siyasi müstəqillik yolu ilə getməsinin tərəfdarıyam» (Səs qəzeti, 1991, 16 mart). Belə bir şəraitdə Azərbaycanın mühafizəkar rəhbərliyi respublika əhalisinin referendumda iştirakı barədə qərar qəbul etdi, baxmayaraq ki, öz suverenliyi uğrunda mübarizə aparan bir çox respublikalar, hətta Ermənistan referendumu boykot etmişdilər. Azərbaycanın demokratik qüvvələri də bu saxta referendumun əleyhinə idi. Azərbaycan rəhbərliyinin təzyiqinə baxmayaraq Heydər Əliyevin

təşəbbüsü ilə Naxçıvan MR Ali Məclisi martın 14-də muxtar respublika əhalisinin referendumda iştirak etməməsi haqqında tarixi qərar qəbul etdi. Naxçıvana qarşı yeni təzyiqlər və hücumlar başlandı. Heydər Əliyevin yaxın tərəfdarı sayılan Afiyəddin Cəlilov 1991-ci il aprelin 5-də Ali Məclisin sədri vəzifəsindən uzaqlaşdırıldı, yerinə Əkbər Əliyev təyin edildi. Heydər Əliyev xalqın və millət vəkillərinin iradəsinin əksinə olaraq, yetərsay olmayan sessiyada rəhbərliyin dəyişdirilməsinin qanuna zidd olduğunu, muxtar respublikanın ictimai-siyasi vəziyyətə mənfi təsir göstərəcəyini bildirdi. 1991-ci ilin sentyabrın əvvəllərinə qədər muxtar respublikanın ali orqanı olan Ali Məclisin fəaliyyəti faktik olaraq donduruldu, partiya komitələrinin inzibati rəhbərliyi bərpa edildi. Muxtar respublikada demokratik qüvvələrə qarşı Bakıdan idarə olunan təzyiq kampaniyası genişləndirildi. Əslində, əsas məqsəd Heydər Əliyevi gözdən salmaq, xalq arasındakı böyük nüfuzuna zərbə vurmaq, siyasi fəaliyyətinə əngəllər yaratmaq idi.

Heydər Əliyev başda olmaqla Naxçıvan Ali Məclisinin demokratik ruhlu deputatlarının çoxsaylı çağırışları nəticəsiz qalır, ali orqanın sessiyalar keçirilməsinə yol verilmirdi. Heydər Əliyev Kommunist Partiyasının mürtəce siyasətinə etiraz əlaməti olaraq 1991-ci il iyulun 19-da bu partiyanın sıralarını tərk etdiyini bildirdi. SSRİ Nazirlər Soveti yanında partiya təşkilatına yazdığı ərizədə partiyanı 1990-cı ilin yanvarında Azərbaycan xalqına qarşı hərbi təcavüzdə, mərkəzi ikiüzlü siyasətdə, Dağlıq Qarabağ hadisələrini yaratmaqda, Azərbaycanda demokratik hərəkatın qarşısını almaq cəhdlərində təqsirləndirərək göstərirdi ki, yeniləşən partiya və respublikaların yeni ittifaqı haqqında saysız-hesabsız bəyanatlar ancaq xalqı aldatmaqdır. Xalqa açıq demək lazımdır ki, bizim ölkəmizdə kommunizm eksperimenti, sosializm yolu özünü doğrultmadı, zorakılıqla yaranan və saxlanılan respublikalar ittifaqı süquta uğramaqdadır (Azərbaycan qəzeti, 1994, 28 yanvar).

Heydər Əliyevin bu uzaqgörənliyi cəmi bir aydan sonra təsdiqini tapdı. İmperiyanı qoruyub saxlamağa çalışan mühafizəkar qüvvələr 1991-ci ilin avqustunda dövlət çevrilişinə əl ataraq Dövlət Fövqəladə Vəziyyət Komitəsi (DFVK) yaratdıqlarını elan etsələr də bütün müttəfiq respublikaların mütərəqqi qüvvələrinin kütləvi etirazı və müqaviməti ilə rastlaşdılar. Qiyamçıları dəstəkləyən A. Mütəllibovun hərəkətləri Azərbaycanda geniş etiraz rezonansına səbəb oldu. Müstəqillik uğrunda milli-demokratik hərəkat dönməz xarakter aldı. Azərbaycanın bütün şəhər və rayonlarında respublika rəhbərliyinin antimilli siyasətinə qarşı mitinq və nümayişlər keçirildi. Belə bir gərgin vaxtda Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyətinə yazılı müraciət edərək, növbədənkənar fövqəladə sessiya çağırılmasını tələb etdi. Müraciətdə sessiyada A. Mütəllibov başda olmaqla Azərbaycan rəhbərliyinin hərbi xuntanın həyata keçirməyə çalışdığı dövlət çevrilişi ilə bağlı

mövqeyinin və fəaliyyətinin müzakirə edilməsi və obyektiv qiymət verilməsi, Sov.İKP-nin tərkib hissəsi olan Azərbaycan KP-nin respublikada təkhakimiyyətlilikdən kənarlaşdırılması və onun hərbi xunta ilə əməkdaşlığının məsuliyyət dərəcə¬sinin müəyyənləşdirilməsi və xuntaya etiraz mitinqləri zamanı dinc əhaliyə qarşı güc tətbiq edilməsinin müzakirəsi məsələlərinin aydınlaşdırılmasına qədər sentyabrın 8-nə təyin olunmuş prezident seçkilərinin təxirə salınmasını tələb etdi (Səs qəzeti, 1991, 11 oktyabr). Heydər Əliyev həmin tələbləri demokratik qüvvələrin təkidi ilə 29 avqust 1991-ci ildə çağırılmış Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında da səsləndirərək respublikanın, Azərbaycan xalqının yaşadığı çətin, ağır vəziyyətin əsas səbəbini Azərbaycan Kommunist Partiyasının diktatura rejiminin mürtəce siyasətində və buraxdığı kobud, bağışlanılmaz səhvlər də olduğunu göstərmişdi. Heydər Əliyev çıxış yolu kimi milli birliyə nail olmağı, bu məqsədlə Azərbaycan KP-nin dərhal hakimiyyətdən getməsini, 20 Yanvar hadisələrinə prinsipial siyasi qiymət verilməsini, əksəriyyətinin kommunistlərdən ibarət olan Ali Sovetin və KP-nin çox şeylərdə günahkar olduğunu və buna görə də parlamentin buraxılmasını və yeni seçkilərin keçirilməsini qətiyyətlə tələb etdi (Qayıdış (1990-1993), 2008). Sənədlər toplusu. Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı. Azərbaycan, 2008Onun nitqinə mane olmaq üçün bir sıra öyrədilmiş şəxslər həmin gün və avqustun 30-da salonda hay-küy salıb ona böhtanlar yağdırırdılar. Lakin bu iyrənc hərəkətlər Heydər Əliyevin iradəsini sarsıdıb, yolundan döndərə bilmədi.

1991-ci il avqustun 26-da Naxçıvan MR Ali Məclisinin uzun fasilədən sonra çağırılmış fövqəladə sessiyası dövlət çevrilişi cəhdlərini və A. Mütəllibovun hərbi xuntanı dəstəkləyən mövqeyini kəskin pisləməklə yanaşı, muxtar respublika ərazisində Kommunist Partiyası və komsomolun yerli təşkilatlarının fəaliyyətinin dayandırılması və əmlakının milliləşdirilməsi barədə qərar qəbul etdi, Ali Məclisin yetərsay olmadan keçirilmiş 5 aprel 1991-ci il sessiyasında Əkbər Əliyevin Ali Məclisin sədri seçilməsi haqqında qərarı ləğv edildi (AMEA, TİEA, f.1, s.19, iş 8953).

Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sessiyası 1991-ci il avqustun 30-da Azərbaycanın dövlət müstəqilliyi ilə bağlı bəyannamə qəbul etdi. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev «Azadlıq bəyannaməsi»nin legitimliyinin təmin edilməsi üçün referendum keçirilməsi, 1920-cı il aprelin 28-də Azərbaycanın işğal edildiyi və Azərbaycan Demokratik Respublikasının zorakılıqla ləğv olunduğunu orada təsbit məsələsini təklif etsə də onun bu təklifləri mühafizəkar çoxluq tərəfindən rədd edildi (Qayıdış (1990-1993), 2008).

1991-ci il sentyabrın əvvəllərində Naxçıvan Muxtar Respublikasında ictimai-siyasi proseslər çox coşqun inkişaf edirdi. Yüz minlərlə əhalinin iştirak etdiyi mitinqlərdə Heydər

Əliyevin qətiyyətli mövqeyi müdafiə olunur, muxtar respublikanın düşdüyü ağır siyasi, iqtisadi vəziyyətdən çıxış kimi onun rəhbərliyə gətirilməsi tələb edilirdi (Səs qəzeti, 1991, 6 sentyabr).

Nəhayət, Ali Məclisin 1991-ci il sentyabrın 3-də keçirilmiş sessiyasında 4 dəfə namizədliyini geri götürməsinə baxmayaraq Heydər Əliyev yekdilliklə Naxçıvan MR-in rəhbəri seçildi. Ertəsi gün Ali Məclisin Heydər Əliyevin sədrliyi ilə keçirilən iclasında sentyabrın 8-nə təyin edilmiş Azərbaycan Respublikası Prezidentinin seçkilərinin muxtar respublika ərazisində dayandırılması haqda qərar qəbul olunmuş, Azərbaycan Respublikası Ali Sovetindən isə prezident seçkilərinin daha sonrakı müddətə keçirilməsi xahiş edilmişdi. Sessiyada həmçinin Ali Sovetdən Azərbaycan Kommunist Partiyasının, onun Mərkəzi Komitəsinin fəaliyyətinin dayandırılması, partiyanın əmlakının milliləşdirilməsi xahiş edilmişdi (Qayıdış (1990-1993), 2008). Lakin respublikanın hakimiyyət orqanları muxtar respublikada gedən demokratik prosesləri təhrif etmək, baş verən müsbət dəyişikliklərə qara yaxmaq üçün bütün vasitələrdən istifadə edərək, respublika əhalisində bu dəyişikliklər barədə yanlış təsəvvür yaratmağa çalışırdılar.

A. Mütəllibovun əlaltıları Ali Məclisin işini pozmaq üçün ən iyrənc vasitələrdən belə istifadə etməkdən çəkinmirdi. Bu məqsədlə inhisara alınmış kütləvi informasiya vasitələrindən, radio, televiziyanın imkanlarından istifadə edilir, orada Naxçıvan MR rəhbərliyinin fəaliyyətini separatizm kimi göstərmək üçün müxtəlif vasitələrə əl atılırdı. Heydər Əliyevi Azərbaycan xalqının gözündən salmaq istəyirdilər. Bu zaman muxtar respublikada cərəyan edən hadisələrdən tamamilə xəbərsiz olan və Bakıda yaşayan Naxçıvan ziyalıları belə antinaxçıvan, antiəliyev kampaniyasına cəlb edilmişdi. Muxtar respublikanın Ali Məclisi Azərbaycan rəhbərliyinin bu qanunsuz hərəkətlərini qətiyyətlə pisləyərək, bunları Naxçıvan Muxtar Respublikasında gedən demokratik prosesləri pozmaq cəhdləri kimi qiymətləndirmişdi (Qayıdış (1990-1993), 2008).

Naxçıvan MR Ali Məclisinin 1991-ci il 1 oktyabr tarixli qərarı ilə Azərbaycanın keçid dövründə ittifaq orqanlarında iştirakı yolverilməz hesab edildi [8, s. 171]. Oktyabrın 26-da keçirilən iclasda isə Azərbaycan Respublikası Ali Soveti tərəfindən “Respublikanın iqtisadi və ictimai-siyasi həyatını sabitləşdirmək sahəsində əlavə tədbirlər haqqında” 1991-ci il oktyabrın 8-də qəbul olunmuş qanuna və bununla əlaqədar “Azərbaycan Respublikasının rayonlarında, şəhərlərində və qəsəbələrində dövlət hakimiyyət və idarəetmə orqanlarının strukturunu və fəaliyyətini təkmilləşdirmək haqqında” Azərbaycan Respublikası Prezidentinin 1991-ci il 18 oktyabr tarixli fərmanına münasibət bildirən Ali Məclis həmin sənədləri siyasi baxımdan mürtəce və antidemokratik xarakter kəsb edən, hüquqi cəhətdən konstitusiyaya zidd

akt kimi pisləmiş, bu qərarların Naxçıvan MR üçün qəbuledilməz hesab etmişdi. Muxtar respublikada həyata keçirilən demokratik prosesləri məhdudlaşdırdığı üçün və Naxçıvan MR-in Konstitusiyasına zidd olan hüquqi sənəd kimi Azərbaycan Respublikası Prezidentinin 18 oktyabr 1991-ci il fərmanının muxtar respublika ərazisində tətbiq edilməməsi haqqında qərar qəbul edilmiş, respublika prezidentinə əlavə səlahiyyətlər verən 8 oktyabr 1991-ci il tarixli Azərbaycan Respublikasının qanununa yenidən baxılması Ali Sovetdən xahiş edilmişdi (Qayıdış (1990-1993), 2008).

Naxçıvan Muxtar Respublikasına, onun Ali Məclisinə, xüsusən Heydər Əliyevə qarşı böhtançılıq və təxribat kampaniyasının davamı olaraq Azərbaycan Respublikası Ali Soveti müəmmalı şəraitdə Azərbaycan Respublikası Konstitusiyasına dəyişiklik haqqında məsələni gündəliyə salaraq, konstitusiyanın 112-ci maddəsinin 2-ci hissəsində təsbit edilmiş "Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri vəzifəyə görə Azərbaycan Respublikası Ali Soveti sədrinin müavinidir" cümləsini Konstitusiyadan çıxardı. Bu qərar Naxçıvan MR-in Azərbaycan Konstitusiyası ilə müəyyən olunmuş statusunun kobud surətdə pozulması demək idi. Bu qərar həm də demokratiya əleyhinə yönəlmiş süni "Naxçıvan problemi" yaratmaq məqsədi güdürdü. Bu cür siyasətə qəti etiraz əlaməti olaraq Azərbaycan Respublikası Ali Sovetinə, Naxçıvan MR Ali Məclisinə ayrı-ayrı vətəndaşlar və əmək kollektivləri tərəfindən saysız-hesabsız teleqramlar göndərilmişdi. Naxçıvan MR Ali Məclisinin Rəyasət Heyəti bəyanat verərək bu cür Konstitusiyaya zidd hərəkətlərə öz etirazını bildirmiş və qərarın ləğv edilməsini tələb etmişdi (Qayıdış (1990-1993), 2008). Heydər Əliyev başda olmaqla Naxçıvan MR rəhbərliyinin qətiyyətli mövqeyi, demokratik ruhlu deputatların etirazları sayəsində bu qərar qısa zamandan sonra – 17 oktyabr 1991-ci ildə ləğv olunsa da, respublika rəhbərliyi Naxçıvan MR ilə süni qarşıdurma yaratmaq, buradakı demokratik prosesləri əngəlləmək siyasətindən əl çəkmirdi.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya aktı" yekdilliklə qəbul edildi. Bu tarixi hadisə ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev "Həyat" qəzetinə göndərdiyi teleqramda muxtar respublika əhalisi adından bütün Azərbaycan xalqını təbrik etmiş və əmin etmişdir ki, naxçıvanlılar milli azadlıq hərəkatı uğrunda mübarizəni daha əzmlə davam etdirəcəklər (Qayıdış (1990-1993), 2008).

Bütün maneələrə və çətinliklərə baxmayaraq, Naxçıvanda müstəqil dövlət quruculuğu və demokratikləşmə prosesi sürətlə getməkdə idi. Heydər Əliyevin başçılığı altında Naxçıvan MR Ali Məclisinin qəbul etdiyi qərarlar muxtar respublikanın əhalisi tərəfindən tam dəstəklənir və müdafiə edilirdi.

1991-ci il dekabrın 15-də keçirilmiş Ali Məclisin sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyi üzrə "Azərbaycan Respublikasının Referendumunun keçirilməsi haqqında" Azərbaycan Respublikası Ali Sovetinin 15 noyabr 1991-ci il tarixli qərarı geniş müzakirə olundu. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev respublika rəhbərliyinin mövqeyini kəskin tənqid edərək dövlət müstəqilliyi ilə bağlı mühüm və tarixi qərarların qəbul edilməsinin əsassız olaraq gecikdirilməsini, onun dövlət müstəqilliyinə nail olmasına daxilən müqavimət göstərməsi ilə izah etmişdi.

Buna baxmayaraq Naxçıvan MR Ali Məclisi bu aktın qəbul edilməsini Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpa edilməsi və onun suveren dövlət kimi tanınması, beynəlxalq hüququn subyekti kimi fəaliyyət göstərməsi yolunda atılan bir addım kimi bəyəndiyini bildirmiş, eyni zamanda respublika Ali Sovetindən 1991-ci il martın 17-də SSRİ-nin saxlanılması ilə əlaqədar Azərbaycanda keçirilmiş referendumun nəticələrinin saxtalaşdırılmış hesab edilməsi və onların ləğv edilməsi üçün qərar verilməsi xahiş edilmişdi (Qayıdış (1990-1993), 2008).

Ali Məclisin həmin dövrdə qəbul etdiyi qərarlar içərisində öz tarixi əhəmiyyətinə görə 16 dekabr 1991-ci il tarixli "31 dekabr Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" qərarı mühüm yer tutur. Məsələnin müzakirəsində çıxış edən Heydər Əliyev qeyd edirdi:

"*Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında məsələnin Naxçıvan MR Ali Məclisinin sessiyasında müzakirə olunması Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə qeyd edə bilərik ki, bu məhz Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür".* O, qətiyyətlə bildirirdi ki, "*Ali Məclisin qərarı Azərbaycan Respublikasının tərəqqipərvər, milli ruhlu dairələrində razılıq hissi ilə qarşılanacaq və bütün Azərbaycanda bu hərəkatın güclənməsinə bir daha təkan verəcəkdir... Şübhə yoxdur ki, bu hərəkat getdikcə güclənərək bizim xalqın birləşməsinə, tam milli azadlığa nail olmasına kömək edəcəkdir"* (Qayıdış (1990-1993), 2008). Ali Məclisin qərarında dekabrın 31-də Dünya Azərbaycan türklərinin həmrəylik və birlik günü elan olunması və hər il bayram edilməsi, həmin günün Naxçıvan MR ərazisində istirahət günü hesab edilməsi, bu günün bütün Azərbaycan Respublikasında rəsmən qeyd edilməsi üçün qanunvericilik təşəbbüsü qaydasında Azərbaycan Respublikası Ali Sovetinə təklif verilməsi kimi müddəalar öz əksini tapmışdı (Qayıdış (1990-1993), 2008).

## Nəticə

Beləliklə, Heydər Əliyevin Naxçıvana və böyük siyasətə qayıtması nəticəsində muxtar respublikada siyasi proseslər daha da dərinləşdi, demokratikləşmə, milli ruhun

dirçəldilməsi dönməz xarakter aldı. Məhz Heydər Əliyevin Naxçıvana gəlişindən sonra burada milli dövlətçiliyin bərpası istiqamətində qəti addımlar atılmağa başladı. Blokadanın yaratdığı ağır məhrumiyyətlər şəraitində yaşayan muxtar respublika əhalisində gələcəyə inam və ümid yarandı.

Xalqın təkidli tələbi ilə 1991-ci il sentyabrın 3-də muxtar respublikanın rəhbəri – Ali Məclisin sədri vəzifəsinə seçilmiş Heydər Əliyev respublika rəhbər-liyinin Azərbaycanın maraqlarına zidd, dövlət müstəqilliyi əleyhinə yönəlmiş siyasətini kəskin tənqid edərək Naxçıvanda, Azərbaycanın bu kiçik torpağında milli müstəqillik istiqamətində qətiyyətli addımlar atmağa başladı. Bu məsuliy-yətli vəzifəni öhdəsinə götürməklə Heydər Əliyev Naxçıvan torpağını onu gözləyən bəlalardan xilas etdi, onun muxtariyyət statusunu qoruyub saxladı. Məhdud məkan çərçivəsində fəaliyyət göstərməsinə, respublikada rəhbərlikdə olan imperiyapərəst rejimin təzyiq və böhtanlarına baxmayaraq, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən qərarlar bütün Azərbaycanda geniş əks-səda doğurur, xalq tərəfindən, demokratik qüvvələr tərəfindən yekdilliklə dəstəklənirdi.

**Ədəbiyyat**

*Azərbaycan beynəlxalq aləmdə.* (1998). (III cilddə). III. Cild).

AMEA, TİEA, f.1, s.19, iş 8953

*Azərbaycan Respublikası Milli Məclisin Arxivi.* f 2941,s.1a, iş 186

*Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildlik.* (1998). (7-ci kitab). Azərnəşr.

*Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Çoxcildlik.* (1998). (14-cü kitab).Azərnəşr.

*Həyat qəzeti*

(1994, 28 yanvar). *Azərbaycan qəzeti.*

*Qayıdış (1990-1993). Sənədlər toplusu.* (2008). Təkmilləşmiş və yenidən işlənmiş ikinci nəşr. Azərbaycan Neşriyat.

*Səs qəzeti*

*Şərq qapısı qəzeti.*